UOT 070 (479.24)

**Rüstəmxanlı T.**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*Bakı ş., Hüseyn Cavid prospekti, 115.*
*e-mail:azeriturk@mail.ru*

# "ƏKİNÇİ" QƏZETİ VƏ MİLLİ İSTİQLAL ŞÜURU

**Açar sözlər:** *demokratiya, maarifçilik, "Əkinçi" qəzeti, müstəqillik, ədəbi məclis, milli dəyərlər.*

## GİRİŞ

*"Əkinçi" qəzetinin başlıca prinsipləri - maarifləndirmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, başəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması və s. idi.Tarix Mirzə Fətəlini, Mirzə Fətəli isə Həsən bəy Zərdabini, onun simasında ilk Azərbaycan mətbuatını yetişdirdi. İlk mətbu orqan olan "Əkinçi" qəzeti çarizmin müstəmləkəçilik siyasəti, mütləqiyyət və orta əsr geriliyi üzündən xalqın həyatına nisbətən gec gəlmişdi. Öz dövri mətbuatını Avropa XVI əsrdə, Rusiya isə XVIII əsrin ilk illərində yaratdığı halda, Azərbaycan buna ancaq 1875-ci ildə nail olmuşdur, Ümumiyyətə, XIX əsr ziyalılarının hamısı millətin mövcud olmasının və tərəqqisinin əsas şərtinin milli tarixi və başqa xalqların təcrübəsinin öyrənilməsindən keçdiyini qeyd etmiş və millətə yol göstərərkən bu faktorlara əsaslanmışlar.*

XIX əsrin əvvəlindən çarizmin hərbi gücə, maddi və mənəvi təzyiqlərə əsaslanan çoxmərhələli, çoxqatlı assimilyasiya siyasətinə baxmayaraq, xalqı milli-dini ənənələrdən, mənlik şüurundan, vətənpərlik və azadlıq idealından ayırmaq mümkün olmamışdır. Azərbaycan torpaqlarında yaddinli, yadtəbiətli, yaddüşüncəli etnosların nümayəndələrinin məskunlaşdırılması da, nəinki ölkədə milli-mənəvi ab-havanı dəyişə bilməmiş, əksinə, xalqı müqavimətə, milli-mənəvi dəyərlərin qorunması uğrunda mübarizəyə səfərbər etmişdir. Ümumiyyətlə, hələ XVIII əsrin sonlarında rus ordusunun Azərbaycana yürüşləri zamanı xalq ona qarşı ciddi müqavimət göstərmiş, torpaqlarının işğalçı əlinə keçməsinə imkan verməmişdi. XVIII əsrin I yarısında Səfəvilər dövləti siyasi iflas yaşayarkən Rusiyanın hakim dairələri fürsətdən istifadə edərək Azərbaycan torpaqlarını zəbt etməyə çalışmışdı. Lakin Nadir şah hakimiyyətə gələn kimi rus hərbi birləşmələrinin nəinki Azərbaycandan çıxmasına, hətta bütün Qafqazdan uzaqlaşdırılmasına nail olmuşdu. Azərbaycanlılar Qacarlar dövləti ilə Rusiya arasındakı həm birinci (1806-1813), həm də ikinci (1826-1828) müharibədə kifayət qədər şücaət göstərmiş, xeyli insan doğma torpaqları qorumaq üçün canından keçmişdi. 1804-cü ildə gəncəlilərin Ziyad xanın rəhbərliyi altında təpədən-dırnağadək silahlanmış rus qoşunu ilə müharibəyə girməsi xalqın şüurunda milli azadlıq və vətənpərvərlik ideyasının möhkəm oturduğunu təsdiq etmişdi. İşğaldan sonra çarizmin başlıca məqsədi xalqın mübarizə və müqavimət ruhunu sındırmaq olmuşdusa da, heç bir plan gözlənilən nəticəni verməmişdi. XIX əsrin birinci yarısında, daha doğrusu Türkmənçay müqaviləsindən sonrakı dövrdə də ölkənin müxtəlif əyalətlərində ara-sıra üsyanlar baş verir, sərhəd qoruyan ruslarla azərbaycanlılar arasında tez-tez silahlı toqquşmalar olurdu, lakin onlar mütəşəkkil xarakter daşımır, bir qədər də dəqiq desək, həmin mübarizələrin mahiyyəti irançılıq və müsəlmançılıq prinsiplərindən uzağa getmirdi. Azərbaycanlılar işğaldan azad olmağı İranın tərkibində qalmaq, əvvəlki statusu bərpa etmək kimi başa düşürdülər. Bunun səbəbi isə, İranın uzun zaman

azərbaycalılar tərəfindən idarə edilməsi, dövlətçilik şüurunun fars-azəri tandemi üzərində qurulması olmuşdu.

Ancaq XIX əsrin ortalarından etibarən azərbaycanlıların ictimai şüurunda yeni bir mərhələ - irançılıq və müsəlmançılıq düşüncəsinin azərbaycançılıq təfəkkürü ilə əvəzlənməsinin başlandığını görürük. Maarifpərvər ziyalılar, qələm adamları, xeyriyyəçilər, yeni yaranmaqda olan burjua nümayəndələri və digər şəxslər xalqın vahid ideya ətrafında birləşməsi barədə fikirlər səsləndirməyə başlayır, ehtiyatla olsa da, çarizmin işğalçı siyasətinin mahiyyətini xalqa izah etməyə çalışırdılar. Təbii ki, bu məsələdə əsas rolu elm, mətbuat, mədəniyyət, fəlsəfə, tarix, xüsusən də, millətin öz mənəvi dəyərlərini əks etdirən tarix oynamışdır. Bununla bağlı görkəmli alim Yaşar Qarayev yazırdı: "Nə etnik şüur, nə milli yaddaş öz kökünü, cövhərini kənar mənbədən almır, təlimat kodeksi, nizamnamə sənədi, qurultay qətnaməsi və protokoldan çıxarış qərar şəklində mövcud olmur. Kütləviləşməsi, mənimsənilməsi də bürokratik –inzibati yolla, toplantılarda iclaslarda gerçəkləşmir. Kütləni milli ideyaya elm, mədəniyyət, fəlsəfə, mətbuat hazırlayır" **(11, "Azərbaycan"qəzeti, 14-16 fevral, 2002-ci il)**.

İnsan və insan cəmiyyətində istiqlal düşüncəsinin formalaşması minillik və bundan daha uzun bir tarixi yol keçməklə, milli-mənəvi dəyərlərdən ibarət fundamental əsaslar üzərində bərkiməklə və tərəqqipərvər ədəbi cərəyanların nümayəndələrinin, maarifçilərin ağır və məşəqqətli əməyindən yaranan tükənməz enerji ilə maneələri dağıtmaqla XX əsrin ikinci onilliyində milli dövlətçilik məfkurəsinin reallaşmasına gəlib çıxmışdır. Mirzəbala Məmmədzadə milli istiqlala gələn yolu qısaca olaraq aşağıdakı kimi xarakterizə etmişdir: "Azərbaycan milli xartiyasının xülasəsi, istiqlal fikrinin təsisində Vaqifdən tutmuş Cavidə qədər, Zakirdən başlamış Cavada qədər, Mirzə Fətalidən Üzeyrə kimi, "Əkinçi"dən "Azərbaycan"a və "Yeni Qafqaziyaya"dək hər birinin olduqca böyük rolu və dəyərli rolu olmuşdur. Siyasi-ictimai fikirlərimizin tərəqqi və təkamül tarixini təşkil edən dövr bugünkü aydın və parlaq istiqlal məfkurəsinin təməlini təşkil edir. Hətta ən uzaq istiqlalımızı təyin eləmək üçün keçirdiyimiz fikri inkişaf tarixinə baxmaq və ondan milli hərəkatın ruh və mahiyyəti haqqında bir fikir almaq kifayət edər. O dövrün də özünəməxsus məfkurəsi, məfkurə uğrunda çəkişməsi, mübarizəsi , o dövrün də qəhrəmanları, məzlumları, şəhidləri və mücahidləri olmuşdur. Onların yorulmaq bilməyən çəkişməlri nəticəsindədir ki, bu gün biz minlərcə gənci ölümə sövq edən bir xartiya almışıq. Zənnimcə, Mirzə Fətəli və Həsən bəy Zərdabi 50 il sonra dünyaya gəlsəydilər, istiqlal fikri, Azərbaycan milli xartiyası 50 il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır". **(7, s.134)**

Həqiqətən də belədir: tarix Mirzə Fətəlini, Mirzə Fətəli isə Həsən bəy Zərdabini, onun simasında ilk Azərbaycan mətbuatını yetişdirdi. İlk mətbu orqan olan "Əkinçi" qəzeti çarizmin müstəmləkəçilik siyasəti, mütləqiyyət və orta əsr geriliyi üzündən xalqın həyatına nisbətən gec gəlmişdi. Öz dövri mətbuatını Avropa XVI əsrdə, Rusiya isə XVIII əsrin ilk illərində yaratdığı halda, Azərbaycan buna ancaq 1875-ci ildə nail olmuşdur, yəni feodal mütləqiyyəti və orta əsr geriliyinin ucbatından "Əkinçi"nin mənsub olduğu xalqın intizarı uzun çəkmişdir".**(4, s.4.)** Doğrudur, "Əkinçi"yə qədər Azərbaycanda qəzetçilik sahəsində bəzi addımlar atılmışdı, 1828-1832-ci illərdə "Tiflisskiye vedomosti" qəzetinin Abbasqulu ağa Bakıxanovun redaktorluğu altında farsca buraxılışı və 1838-1845-ci illər arasında nəşr olunan "Zaqafqazski vestnik" qəzetinin isə "Qafqazın bu tərəfinin xəbəri" adlı azərbaycanca əlavəsi çap edilmişdi, lakin rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər sözün əsl mənasında hələ qəzet adlandırıla bilməzdi. Həsən bəy Zərdabi millət üçün qəzet yaratmaq məqsədini qarşısına qoyanda çox ağır işdən yapışdığını gözəl bilirdi. 1876-cı ildə üzünü gənclərə tutub onları millət yolunda fədakarlığa çağıranda həmin məsələyə aşağıda-

kı kimi toxunmuşdu: "Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim Vətən qardaşlarımız ilə üns tutmaq çətindir. Siz danışdığınızı onlar başa düşməyib, əhvalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər! Amma insaf deyil, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarınızı atıb, onları kor və sərgərdan qoyasınız... Qoy şüaralar sizi həcv etsin, mollalar lənət oxusun, avamşünas daşa bassın, siz millət üçün zəhmət çəkərsiniz və bişək, gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaqlar" **(2, N11)**.

Həsən bəy Zərdabi millət üçün çalışmağa başlayanda bu problemlərin hamısını göz önünə almışdı: "...O, xalqa fayda verə biləcək hər bir işə böyük ümidlə girişmişdi: Azərbaycan peşəkar teatrının bünövrəsini qoyan ilk tamaşa, Xeyriyyə cəmiyyəti açmaq təşəbbüsü... Bakı real məktəbində müəllimlik.... Rus mətbuatında əməkdaşlıq... Camaat arasında könüllü vəkillik..." **(6,s.6).** Həsən bəy Zərdabinin qəzetçilik prinsipində əsas məsələ qəzetin xalqa yaxın olması, xalqın dilində danışması, cəmiyyətdəki nöqsan və bəlaları göstərməklə bərabər, həm də onların əlacını göstərməsi idi. Əlbəttə, doğru sözə düşmən olan cəmiyyətdə belə bir qəzeti buraxmaq son dərəcə çətin idi. O, yalnız üçillik ağır, gərgin zəhmətdən, get-gəllərdən, yazışmalardan sonra hökumətdən qəzet çıxarmaq icazəsini almışdı. 1905-ci ilin 28 dekabr tarixində çap olunmuş "Həyat" qəzetinin 129-cu sayında həmin günləri xatırlayaraq yazırdı: "Bəs qəzeti necə çıxardım? Pul yox, yazıçı yoldaş yox, çapxana yox, hürufat yox, əmələ yox, bir-iki yüzdən də artıq oxuyan olmayacaq. Dövlət tərəfindən izin almaq da böyük bəladır".

"Əkinçi" qəzetinin başlıca prinsipləri - maarifləndirmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması və s. idi. Çarizmin ciddi nəzarətinə, senzuraya baxmayaraq, qəzet elə birinci sayından "dəyişmək" və "dəyişilmək" kimi ifadələrlə bəzi mətləblərə işarə etməyə başladı: "Dünya bir şeydir ki, həmişə dövran edir və insan bu tövr dünyanın gərdişinə görə gərək habelə öz tövrünü də dəyişdirsin, necə ki, məsəldir deyirlər, zəmanə sənə saz olmasa, sən zəmanəyə saz olgilən. Pəs olmaz ki, dünyada həmişə bir qayda ilə rəftar olsun".**(1, N-1.)**

Həsən bəy Zərdabi öz qəzeti vasitəsilə xalqını dünyanın qabaqcıl mədəniyyəti, maarifi, ictimai-fəlsəfi fikri ilə tanış etmək, onu öz hüquqlarına yiyələnmiş millətlərin sırasına, mütərəqqi dünyanın dəyərlərinə qoşmaq istəyirdi. Qəzetin adının "Əkinçi" olması da təsadüfi deyildi, yəni bu, onun əkinlə, biçinlə məşğul olacağına işarə eləmirdi, H.Zərdabi "əkinçi" sözü ilə çar hökumətinin və onun senzurasının diqqətindən yayınmağa, öz fikirlərini dolayı yolla olsa da Azərbaycanın ziyalılarına çatdırmağa çalışırdı. O, qəzetin lap birinci nömrəsindən "müsəlmanları anlayan və pişrov kəslərə" üzünü tutaraq bəyan etmişdi ki, dünya dəyişir, xalqı artıq keçmişdə olduğu kimi cəhalətdə saxlamaq, onu dünyəvi proseslərdən kənarda qoymaq, yaxud geriyə çəkmək mümkün deyil. Qəzetin 1875-ci il 22 iyul tarixli əvvəlinci nömrəsinin "Daxiliyyə" bölməsində H.Zərdabi yazırdı: "Dünya bir şeydir ki, həmişə dövran edir və insan bu tövr dünyanı gərdişinə görə gərək habelə öz rəftarını da dəyişdirsin, necə ki, məsəldir deyirlər zəmanə sənə saz olmasa, sən zəmanəyə saz olgilən. Pəs olmaz ki, dünyada həmişə bir qayda rəftar olsun. Bizim zəmanənin dəyişilməyi, əlbəttə, anlayan hər kəsə məlumdur və bu tövr zəmanənin dəyişilməyi bizim ilə deyil, həmçinin biz qadir deyilik ki, zəmanəni dəyişməkdən saxlayaq. Ol kəslər ki, həmişə bizə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişildiyinə görə günbəgün tərəqqi edib irəli gedirlər. Onların belə irəli getməyinə mane olmaq, yəni onların keçən zəmanənin qaydası üzrə saxlamaq məsləhət deyil, ona görə ki, onlar bizsiz də gedəcəkdirlər" **(3, N-1)**.

"Əkinçi" qəzetinin ortaya qoyduğu ideyalar boş yerdən yaranmamış, xalqın zaman-

zaman ruhunda gəzdirdiyi, ziyalıların, aydınların, mütərəqqi fikir adamlarının arzuladığı, uzaqgörən vətənçi şəxslərin uğrunda həyatlarını qurban verdiyi, ədəbiyyatın, xüsusən minillik Azərbaycan poeziyasının ideallaşdırdığı və nəhayət, Mirzə Fətəli Axundovun "Kəmalüddövlə məktubları"nda bir proqram və platforma şəklində təqdim etdiyi milli istiqlal, müasir və müstəqil dövlət prinsiplərindən qaynaqlanmışdı. M.F.Axundov "Kəmalüddövlə məktubları"nda təkcə mütləqiyyətə, onun despotik üsuli-idarəsinə, şahzadə və əmirlərinin özbaşınalığına, vergi, kömrük, maarif, bank sisteminin yararsızlığına, mənəvi deqredasiyaya, cəhalətə, xalqa gözünü açmağa imkan verməyən xürafata, fanatizmə qarşı çıxmır, həm də dövlətin və dövlətçiliyin mahiyyətini izah etməklə onun hüquqi, demokratik və dünyəvi dəyərlərə yiyələnmək yollarını göstərir, insan hüquq və azadlıqlarının şərtlərini bəyan edirdi. "Kəmalüddövlə məktubları"nnda ən önəmli məsələlərdən biri dövlət və cəmiyyətin qarışılıqlı münasibətləri ("Peymani-fərhəngi"), tərəflərin üzərinə düşən öhdəliklər və onların yerinə yetrilmə şərtləri, sosial vəzifələr, insan haqları və s. kimi məsələlərin beynəlxalq təcrübə əsasında təqdim edilməsi idi. M.F.Axundovun traktovkasının gəldiyi nəticə bu idi ki, dünyada hər şey dəyişəcək, müstəbid, zülmkar hakimiyyətlər gec-tez öz cəzalarını alacaq, taxt-tacı qan bahasına qorumaq istəyən hökmdarın qarşısına Məhəmməd Əli Babi (İranda Babilər hərəkatının lideri) kimi birisi çıxıb, qısa müddətdə bütün xalqı öz tərəfinə çəkərək səltənəti təhlükə ilə üz-üzə qoyacaq. "Aya padişaha güllə atan babilərin yenidən bu kimi bir əmələ iqdam etməyəcəklərini haradan bilmək olar",-deyirdi M.F.Axundov. **(8, s.74.)**. Bu böyük mütəfəkkir xalqa üzünü tutaraq yazırdı: "... əgər sən nəşeyi—azadiyyətdən və hüquqi-insaniyyətdən xəbərdar olsaydın, belə übudiyyətə, belə rəzalətə mütəhəmmil olmazdın, kəsbi-elmə talib olub fəramuşxanələr açardın, məcmələr yapardın, birlik vasitələrini əldə edərdin. Sən ədəddə və qüdrətdə despotdan qat-qat artıqsan. Sənə ancaq yekcəhətli və yekdillik lazımdır ki, revolyusiya edib köləlikdən nicat tapasan. Əgər bu halət, yəni birlik sənə müyəssər olsaydı, özünə bir fikir çəkərdin və özünü puç inamların qeydiyyətindən və despotun zülmündən nicat verərdin" **(9, s.68).**

Göründüyü kimi, tarixi hadisələrin inkişafına, dünyada gedən proseslərə, insan hüquq və azadlıqlarına, xalqı cəhalətdə və əsarətdə saxlayan problemlərə münasibətdə Həsən bəy Zərdabi M.F.Axundov ənənələrinin ən sədaqətli, cəsarətli və müdrik davamçısı kimi xalqın azadlığının, hüquq bərabərliyinin, zülm və əsarətdən xilas olmasının yolunun maarifdən, elmə, mədəniyyətə, müasir dünya dəyərlərinə yiyələnmədən, dini fanatizmdən, məzhəbçilikdən azad olmaqdan keçdiyini mükəmməl əxz etmişdir. Ümumiyyətə, XIX əsr ziyalılarının hamısı millətin mövcud olmasının və tərəqqisinin əsas şərtinin milli tarixi və başqa xalqların təcrübəsinin öyrənilməsindən keçdiyini qeyd etmiş və millətə yol göstərərkən bu faktorlara əsaslanmışlar. "Müasir fəlsəfə lüğəti"ndə "milli ideya" termni aşağıdakı kimi formullaşdırılmışdır: "Milli ideya keçmiş tarixi təcrübəni və başqa xalqların təcrübəsini nəzərə almaqla hər bir etnosun-xalqın, millətin bu gün və gələcəkdə mövcud olmasının məqsəd və səbəbini ifadə edir" **(11).**

Zərdabi Moskva, Peterburq, Tiflis və s. şəhərlərin mətbuatında xalq azadlıq hərəkatına aid belə xəbərlər seçib verirdi: Peterburqda doxsan min fəhlə işsiz qalmışdır, orada "xalqa dövlət qadağan edən kitablar paylanır", qızıl bayraq üstə "torpaq və asudəlik" yazmış inqilabçılardan 21 (kişi və qadın) Sibirə sürgün olunmuşdur, belə hadisələr Moskva, Tula, Oryol kimi şəhərlərdə də baş verir; Amerika Birləşmiş Ştatlarının zavodları və dəmir yollarında tətillər "gün-gündən artır", Çində Dunkan vilayətində əhali milli zülmə qarşı çıxışlara başlamışdır və i.a. və h.b..." **(5, s.13.)**

*Həsən bəy Zərdabi mətbuatın xalqın ruhunu, fikrini, həyatını, məişətini, arzularını əks etdirən bir həqiqət güzgüsü olmaqdan əlavə, bəlkə də daha çox, ona zülmətdən işığa doğru*

*gedən yolda hadi, səmt göstərən ulduz, özü də təkcə onun yolunu yox, həm də qəlbini və beynini işıqlandıran bir ulduz olduğunu yaxşı bilirdi. Ömrünü-gününü xalqın maariflənməsi yolunda şam kimi əritməyi qarşısına məqsəd qoyan H.Zərdabi öz məramı naminə qəzeti az qala ensiklopedik bir mənbəyə, biliklər toplusuna, məlumat xəzinəsinə çevirməklə daha çox informasiya vermək, "bircə qəzeti də basdırmağa adamı olmayan müsəlmanın" dünyadan xəbərdar etmək və bu yolla ona haqqını başa salmağa çalışırdı. Qəzetdə müəyyən siyasi yükü olan fikir və mülahizələr əsasən "Daxiliyyə" bölməsində verilirdi ki, Həsən bəyin çox ehtiyatla qələmə aldığı bu yazılar iki-üç min sözdən ibarət olurdu, qalan materiallar, istər "əkin və ziraət xəbərləri", "elm xəbərləri", "təzə xəbərlər", "beynəlxalq xəbərlər" olsun, istərsə də redaksiyaya ünvanlanmış hər hansı məktub, nəzm, nəsr parçası olsun-hamısı milləti maarifləndirməyə yönəlmişdi.*

## Ədəbiyyat:

1. "Daxiliyyə"// "Əkinçi". - 1875. - 22 iyul.
2. "Əkinçi" qəzeti. – 1876. - № 11.
3. "Əkinçi", 1875-ci il, 22 iyul, əvvəlinci nömrə.
4. Mirəhmədov Əziz. Birinci Azərbaycan qəzeti// Əkinçi, 1875-1877. Tam mətni. - S.4.
5. Mirəhmədov Əziz. "Birinci Azərbaycan qəzeti" //Əkinçi, 1875-1877, Bakı, Avrasiya Press", 2005, s. 13, 496s.
6. Mirəhmədov Əziz. Birinci Azərbaycan qəzeti// Əkinçi, 1875-1877. Tam mətni. - S.6.
7. Məmmədzadə Mirzəbala. Azərbaycan milli xartiyası //Azərbaycan. – 1991. - № 4. - S.134.
8. Axudov. M.F. Aldanmış kəvakib. - Bakı: Maarif, 1985, s.h. 74. - 177 s.
9. Axudov M.F.Aldanmış kəvakib. - Bakı: Maarif, 1985, s.h. 6. - 177 s.
10. Qarayev Yaşar. Milli "mən" şüuru və etnik yaddaş-azərbaycançılıq // Azərbaycan. – 2002. - 14-16 fevral. .
11. http://coolreferat.com/

***Танзиля Рустамханлы***

## ГАЗЕТА «ЭКИНЧИ» И ЧУВСТВО НАЦИОНАЛЬНОЙ НЕЗАВИСИМОСТИ

### Резюме

Основными принципами газеты «Экинчи» являлись просвещение, модернизация, чистота идеологии, пропаганда общенациональных целей, гармония человеческих ценностей и национальных традиций, приближение литературного языка к разговорной речи, объективное освещение событий и т.д. История возвысила Мирза Фатали Ахундова, в свою очередь, Мирза Фатали Ахундов поднял азербайджанскую прессу на должный уровень. Газета «Экинчи», будучи первым печатным изданием, в силу колониальной политики царизма, самодержавия и средневековой рецессии, вошла в жизнь нашего народа сравнительно поздно. В то время как в Европе была создана своя периодическая печать в XVI веке, а в России в первые годы XVIII века, в Азербайджане этого достигли только в 1875 году. В целом, вся интеллигенция X1X века отмечала, что основным условием существования и прогресса нации было изучение национальной истории, а также опыта других народов, указывая нации путь, она основывалась на эти факторы.

**Ключевые слова:** *демократия, просвещение, газета «Экинчи», независимость, литературный меджлис, национальные ценности.*

***Tanzila Rustamkhanli***

**THE NEWSPAPER " EKINCHI " AND THE SENSE OF NATIONAL SELF – INDULGENCE**

**Summary**

The main principles of the "Ekinchi" newspaper are awareness of the raising, modernization, purity of the ideology, propagate national goals, harmony of human values with national traditions, bringing literary language closer to the spoken language, objective coverage of events and so on. History raised Mirza Fatali, and by the way Mirza Fatali grooved up Azerbaijani press in his face. The first edition of the newspaper "Ekinchi" was tacitm relative to the life of the nation because of the colonial policy of the tsarist, absolute and medieval tensions. When Europe created its own periodical press in the XVI century and in Russia at the beginning of the 18th century, Azerbaijan only achieved it in 1875. In general, all nineteenth-century intellectuals noted that the main condition for the existence and progress of the nation was the study of national history and the experience of other peoples and will be based on these factors when leading the country.

**Key words:** *democracy, education, the newspaper "Ekinchi", independence, literary council, national values.*

*Redaksiyaya daxil olma tarixi: 14.09.2018*
*Çapa qəbul olunma tarixi: 07.12.2018*

*Filologiya üzrə elmlər doktoru* ***Paşa Kərimov*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*